

# Qələbəmizin həm bölgə, həm də dünya üçün müstəsna əhəmiyyəti var

**_Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin istənilən müsahibəsi, nitqi, çıxışı və hətta, hansısa debatdakı adi replikası da həqiqəti və reallığı əks etdirdiyinə görə, orada mütləq hamıya – dostlarımıza da, bədxahlarımıza da ismarıclar olur. Bu baxımdan, cənab Prezidentin Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılış mərasimindən sonra Azərbaycan Televiziyasına verdiyi müsahibə də istisna təşkil etmədi._**

> ***Hesab edirəm ki, müasir dünya ikinci belə vəhşilik görməmişdir. Əliyalın insanları yandırıblar, öldürüblər, uşaqları yandırıblar. Bütün binaları, məscidlərimizi dağıdıblar. Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək.***
>
> **Prezident İlham Əliyevin**
> **Azərbaycan Televiziyasına müsahibəsindən**

Televiziya tamaşaçılarına elə gəldi ki, jurnalistin erməni işğalından azad edilən torpaqlarla bağlı verdiyi sualın cavabı bir televiziya əməkdaşına deyil, dünyadakı bütün siyasi qütblərə ünvanlanmışdı. Sanki İlham Əliyev otuz il davam etmiş erməni işğalının nəticələrini dünyanın bütün beynəlxalq təşkilatlarının nəzərinə çatdırırdı: "İndi vaxtaşırı televiziya reportajlarında dağıdılmış, viran qoyulmuş o ərazilər göstərilir. Amma, əlbəttə ki, onu əyani şəkildə görəndə mənzərə tam başqadır. Bu, bir daha onu göstərir ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq. Bu gün bizim haqlı davamıza kölgə salmaq istəyən ermənipərəst, anti-Azərbaycan, islamofob dairələr bunu bilməlidirlər ki, mənfur Ermənistan bizim torpaqlarımızı zəbt edərək, işğal edərək bütün infrastrukturu dağıdıb".

Dövlət başçımız Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında, Şuşa şəhərində gördüklərini əvvəllər də təsvir etməyə çalışmışdı. İndi də daha müfəssəl məlumat verməyə çalışdı. Amma etiraf etdi ki, barbar qonşumuzun törətdiyi vəhşiliklərin miqyasını tam şəkildə dilə gətirmək mümkün deyil. Çünki Ağdam şəhəri tamamilə dağıdılıb. Füzuli şəhərində bir dənə də salamat bina yoxdur. Cəbrayıl şəhərinin girəcəyində bir hərbi hissə var, şəhər yoxdur. Qubadlı və Zəngilanda, sadəcə olaraq, bir neçə ev qalıbdır, özü də yarıdağılmış vəziyyətdə: "Bu mənzərə indi bütün dünyaya təqdim edilir və təqdim edilməlidir. Uzun illər Ermənistan rəhbərliyi və onun havadarları bunu gizlədirdilər. Sanki belə bir şey yoxdur. Beynəlxalq təşkilatların o bölgələrdə olan nümayəndələri də bunun üstünü örtürdülər. Bu talançılıq, bu vəhşilik, bu düşmənçilik bütün dünyanın diqqətini cəlb etməlidir".

Azərbaycan dövləti məhz həmin vəhşilikləri dünya ictimaiyyətinin diqqətinə olduğu kimi çatdırmaq üçün oraya jurnalistləri, diplomatik korpusun nümayəndələrini dəvət edir. Prezident tövsiyə edir ki, mətbuat təmsilçilərini, diplomatları və ekspertləri daha böyük sayda dəvət etməliyik ki, hər kəs görsün: "Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik, erməni vəhşiliyini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır".

Ən başlıca məqamlardan biri də odur ki, dünya siyasətçilərinin "beynəlxalq aləmdə baş verən ictimai-siyasi prosesləri ən incə məqamlarına qədər bilən dövlət başçısı" adlandırdıqları İlham Əliyev düşmənin işğal etdiyi rayonlarımızda törətdiklərinin mənasını, səbəbini bilmədiyini etiraf edir: "Mən özümə sual verirdim ki, nə üçün onlar bunu ediblər? Sözün düzü suala cavab tapa bilmirəm, bu günə qədər də". Təbiətdəki vəhşilərin yırtıcılığı ancaq qidalanmaq məqsədi daşıyır. Erməni vəhşiləri isə işğal etdikləri ərazilərdə qidalanmaqdan əlavə. heç bir canlının törətmədiyi dağıntılara, viranəliklərlə imza atmaqla, erməniliyin tam mənasını ortaya qoymuşlar.

Azərbaycan Ordusu, bax, belə azğın və quzğun düşmənin belini qırıb, onların başını əzib, onların ordusunu, ideologiyasını məhv edib, illər boyunca, onilliklər boyunca onların yetişdirdikləri ideoloji əsasları məhv edib.

Mən bu müsahibəyə televiziyada baxarkən, tarixi məqamlardan birini xatırladım. Özü də acı xatirələrlə. Belə ki, 1996-cı il avqustun 14-də ATƏT-in Misk qrupu Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda, Azərbaycan ilə Ermənistan sərhədində Azərbaycan Prezidenti Heydər Əliyev ilə Ermənistan Prezidenti Robert Koçaryan arasında təkbətək görüş təşkil etmişdi. Görüş başa çatdıqdan sonra ərazi sahibi olan Heydər Əliyev diplomatik protokola əməl edərək Koçaryana dedi ki, buradan geri qayıtmağınız üçün necə kömək edək? Mayası xəyanət və rəzillikdən tutulmuş yekəxana və yekəbaş Koçayran gülümsünərək dedi ki, mənim maşınım var və həm də Sizin istifadə etdiyiniz maşındandır. İstifadə etdiyi nəqliyyat vasitəsini ulu öndərin maşınına tay tutan bu qatilin əxlaqı və ya əxlaqsızlığı milyonlarla soydaşımız kimi məni də uzun illər çox ciddi şəkildə ağrıdır və narahat edirdi.

Cənab Prezidentin Xırdalanda Azərbaycan Televiziyasına verdiyi müsahibənin bir məqamı ürəyimdəki həmin ağrını kifayət qədər yüngülləşdirdi: "O, hərbi cinayətkar və bu dəfə Qarabağ müharibəsində Qarabağa gəlmiş və siçan kimi oradan qaçmış Koçaryan Ağdam məscidinin önündə dayanıb və Ağdam məscidinin divarının üzərində təhqiramiz ifadələr. O, bax, budur. O, bu hisslərlə yaşayıb. Biz onların belini qırdıq, onları məhv etdik". Bəli, biz təkcə Ermənistanı məğlub etmədik, həm də dünya ermənilərinin xəstəlik fazasına keçmiş ideologiyasını darmadağın etdik.

Azərbaycan Ordusunun 44 günlük müharibə dövründə həyata keçirdiyi əməliyyatlara kölgə salmaq istəyən qüvvələr olsa da, biz hamıya sübut etdik ki, haqlıyıq, ədalətli mübarizə aparmışıq, öz ərazi bütövlüyümüzü bərpa etmişik və torpaqlarımızı ən illər boyu işğal altında saxlayan qəsbkarlara öz yerlərini göstərmişik. Bu, bir faktdır ki, müasir dünya ermənilərin Qarabağda törətdiyi əməllərə tay tutula biləcək ikinci belə vəhşilik görməmişdir. Prezident xatırlatdı ki, o vəhşilər əliyalın insanları yandırıblar, öldürüblər, uşaqları yandırıblar: "Bütün binaları, məscidlərimizi dağıdıblar. Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək".

Jurnalistin Şuşa ilə bağlı sualını cavablandıran Prezident dövlət qurumlarının bu məsələdə heç bir özfəaliyyətinə imkan verilməyəcəyini dedi: "Azad edilmiş torpaqların bərpası ilə bağlı mənim tərəfimdən bir çox önəmli qərarlar qəbul edilib, qərargah yaradılıb. Qərargaha Prezident Administrasiyasının rəhbəri rəhbərlik edir. Mən demişdim ki, bütün təkliflər, bütün təşəbbüslər oraya göndərilməlidir".

Doğrudan da, başdan-başa minalanmış həmin ərazilərin tamamilə təhlükəsiz hala gətirilməsi üçün hələ xeyli vaxt lazımdır. Piyadalar əleyhinə istifadə olunan minalar Ermənistanda istehsal edildiyinə görə düşmən həmin silahı torpaqlarımıza toxum səpən kimi səpib. Həmin minaların hər biri "ölüm toxumu"dur. Ondan sonra isə ilk növbədə, dəqiqləşdirilməlidir ki, keçmiş köçkünlər o torpaqlara nə vaxt qayıda bilərlər. Daha sonra isə dəymiş ziyanın qiymətləndirilməsi prosesi başlanacaq. Prezident xatırlatdı ki, əgər biz ziyanın qiymətləndirilməsini etməsək, sabah təzminat davasında da uğur qazana bilmərik: "Ona görə də, ilk növbədə, yerli qurumlar dağıdılmış bütün evlərin pasportlaşdırılmasını aparmalıdır. Video, foto çəkilişlər, dron çəkilişləri, protokollaşma aparmalıdır. Hər bir binanın, hər kənddə yerləşən binanın, hər şəhərdə yerləşən binanın öz pasportu olmalıdır".

Dövlət başçımızın müsahibəsindəki ən çox maraq çəkən fikirlərdən biri isə işğaldan azad edilmiş ərazilərimizdə ən müasir, ən sivil yaşayış məntəqələrinin yaradılacağı barədə deyilənlər oldu. Belə ki, dövlət başçımızın göstərişi ilə bütün şəhərlərin baş planları hazırlanır, özü də elə-belə yox– "ağıllı şəhər" konsepsiyası, "ağıllı kənd" konsepsiyası. Bunu, zaman tələb edir. Eyni zamanda, bütün işlərin planlı şəkildə həll olunması tövsiyə edilir.

Prezidentin müsahibəsindəki sonuncu tezis isə fikrimcə, təkcə onun yox, bütün azərbaycanlıların arzusu, istəyi, qətiyyəti idi: "Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin".

Bəli, dünya Azərbaycanın gücünü ötən ilin payızında görüb. Amma dostlarımızın və bədxahlarımızın qarşıdakı illərdə görəcəyi çox xariqələr var. Sağlıq olsun!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 3 dekabr.- S.3.